4 dekabr 2020-ci il
№41 (8905)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

# QARABAĞ bizimdir, Azərbaycandır!



-Əziz həmvətənlər.

Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz — Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq.

Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa Laçının işğaldan azad olunması müjdəsini verdi**

# Birinci vitse-prezident Mehriban Əliyeva Laçın rayonunun işğaldan azad olunması münasibətilə xalqımızı təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Laçın rayonunun işğaldan azad olunması münasibətilə rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:**

**“Laçın rayonunun işğaldan azad edilməsi münasibətilə hamınızı səmimi-qəlbdən təbrik edirəm! Qoy Uca Allah mərhəmətini xalqımızdan əsirgəməsin, bütün həmvətənlərimizə can-sağlığı və səadət, Vətənimizə sülh, firavanlıq və nurlu gələcək bəxş etsin! Qarabağ Azərbaycandır!”.**



### “Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 430 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

“Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 430 nömrəli Qərarının 5-ci hissəsində “dekabrın 1-dək” sözləri “dekabrın 30-dək” sözləri ilə əvəz edilsin.

**Əli Əsədov,**
**Azərbaycan Respublikasının Baş naziri**

*Bakı şəhəri, 30 noyabr 2020-ci il*

# 13 862 tələbənin təhsil haqqı xərcləri dövlət tərəfindən ödənilib

**Təhsil Nazirliyi tərəfindən *e-telebe.edu.az* portalına müraciətlərin vaxtı dekabrın 10-dək uzadılıb. Məqsəd sosial həssas ailə qrupuna aid tələbələrin dövlət dəstəyi vasitəsilə təhsil haqqı xərclərinin ödənilməsində maksimum əhatəni təmin etməkdir.**




Məlumat üçün bildiririk ki, son iki ay ərzində 2020-2021-ci tədris ili üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi məqsədi ilə sosial həssas əhali qrupuna aid edilən 23 236 tələbə *e-telebe.edu.az* portalına müraciət edib. Onlardan 13 862 nəfərin ödənişi ali təhsil müəssisələrinə artıq ödənilib, 1384 nəfərin müraciəti üzrə isə hazırda müvafiq ali təhsil müəssisələri ilə birgə iş aparılır.

Cari tədris ilində sosial həssas əhali qrupuna aid olan tələbələrdən qeyd edilən tarixədək (10 dekabradək) *e-telebe.edu.az* elektron portalına müraciətlərini tamamlayaraq təsdiq etməsi xahiş olunur.

Qeyd edək ki, 2019-2020-ci tədris ilinin yaz semestri (yarımili) üçün təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi ilə bağlı *e-telebe.edu.az* elektron portalına müraciət etmiş 15 209 tələbənin, o cümlədən ali təhsil müəssisələrində təhsil alan 12 124 tələbənin, orta ixtisas təhsili müəssisələrində təhsil alan 2 830 tələbənin, peşə təhsili müəssisələrində təhsil alan 255 tələbənin təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilib.

# Vətəndaşların qəbulu dekabrın 28-dək dayandırılır

Ölkə ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, Təhsil Nazirliyinin Vətəndaşların Qəbulu Mərkəzi 2020-ci il dekabrın 28-dək fəaliyyətini dayandırır.

Təhsil sahəsində dövlət xidmətlərinin göstərilməsini təmin etmək üçün bu dövr ərzində müraciətlər 146-1 Telefon Məlumat Mərkəzi vasitəsilə cavablandırılacaq.

Vətəndaşlar həmçinin Nazirliyin rəsmi *office@edu.gov.az* elektron poçt ünvanına müraciət edə və elektron resurslarında (*www.edu.gov.az; www.ict.edu.az*) təqdim edilən müxtəlif e-xidmətlərdən yararlana bilərlər.

Rəsmi məlumatları Təhsil Nazirliyinin internet saytı (*www.edu.gov.az*) və sosial şəbəkələrdəki səhifələrindən izləmək tövsiyə edilir.

## MBA proqramı məzunlarının doktoranturada təhsillərini davam etdirmələrinə dair müraciətləri ilə bağlı açıqlama

Son günlər MBA (biznesin idarəedilməsi üzrə magistr) proqramını bitirən məzunlar tərəfindən doktoranturada təhsillərinin davam etdirilməsinə köməkliyin göstərilməsi ilə bağlı Təhsil Nazirliyinə müraciətlər daxil olur.

Qeyd edək ki, doktorantura səviyyəsinə qəbul prosesi “Doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydaları” ilə tənzimlənir. 2019-cu ildə bu qəbul qaydalarında dəyişiklik edilib. Həmin dəyişikliyə əsasən, fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən və magistr dissertasiyasını müdafiə edən Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar. Qəbul qaydalarında edilən dəyişikliyə uyğun olaraq, 2020-ci ildə magistr diplomunda da dəyişiklik edilib və diplomda “doktoranturada təhsilini davam etdirmək” sözündən sonra “magistr dissertasiyasını müdafiə edənlərə münasibətdə” sözləri əlavə edilib. Qanunvericilikdə edilən həmin dəyişikliklər ali təhsilin doktorantura səviyyəsində daha keyfiyyətli, elmi-tədqiqat bacarıqları olan mütəxəssislərin yetişdirilməsi məqsədi daşıdığından MBA proqramını bitirən və yalnız magistr dissertasiyasını müdafiə edən məzunlara doktoranturaya qəbul imtahanlarında iştirak imkanı yaradır.

Təhsil Nazirliyi MBA proqramını bitirən məzunların çoxsaylı müraciətlərini və onların təhsillərini davam etdirmək istəyini, həmçinin Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII bəndini nəzərə alaraq bildirir ki, qanunvericilikdə edilən sözügedən dəyişikliyə qədər (2019-cu ilin 13 noyabr tarixi) MBA proqramına qəbul olunmuş şəxslərin iqtisad elmləri üzrə doktorantura ixtisaslarına qəbul imtahanlarda iştirak etmələrinə imkan yaradılacaq.

## 2021-2022-ci tədris ilində Macarıstanda təqaüd proqramı barədə onlayn vebinar keçiriləcək

4 dekabr saat 16:00-da 2021-2022-ci tədris ilində Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində Macarıstanda təqaüd proqramına həsr olunmuş onlayn vebinar keçiriləcək.

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin əməkdaşları və Macarıstanın Azərbaycandakı səfirliyinin səlahiyyətli nümayəndəsinin iştirakı ilə keçiriləcək vebinarı Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsi üzərindən canlı izləyə bilərsiniz.

Qeyd edək ki, 23 noyabr 2020-ci il tarixində sözügedən təqaüd proqramına sənəd qəbulu ilə bağlı müvafiq elan verilib.

# "İctimai müzakirəyə açıq olmalıyıq ki, düzgün strategiya seçək"





**"Təhsil" Televiziyasının dekabrın 2-də yayımladığı "Təhsil naziri ilə söhbət"in qonağı olan Təhsil naziri Emin Əmrullayev bir sıra mühüm məqamlara aydınlıq gətirib. Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun aparıcısı olduğu verilişdə İctimai Televiziyanın əməkdaşı Vüsalə Məmmədova və 1 news. az informasiya agentliyinin baş redaktoru Rəhman Hacı iştirak ediblər.**

**Təhsil naziri ilə söhbətin I hissəsini oxucularımıza təqdim edirik.**

## Təhsil naziri Emin Əmrullayev media nümayəndələri ilə birlikdə bir sıra mühüm məqamlara aydınlıq gətirib

### Vacib məsələlərdən biri məsuliyyətin tərəflər üzərində paylanmasıdır

**Cəsarət Valehov:** Bugünkü verilişə bir çox hallarda cənab Təhsil nazirinə telemüsahibələrdə verilməyə macal tapılmayan suallarla gəlmişik və böyük məmnuniyyətlə Emin müəllimin təhsil mövzusunda olan fikirlərini dinləyə biləcəyik. Mən düşünürəm ki, bizim hörmətli həmkarlarımız Rəhman Hacı və Vüsalə Məmmədovanın verəcəkləri suallarla Emin müəllimlə bir müzakirə formatı təşkil edəcəyik.

***Rəhman Hacı:** Mənim birinci sualım deyərdim ki, dövrümüzün ən aktual məsələsi ilə bağlıdır. Ümumiyyətlə, hal-hazırda nazirlik tərəfindən pandemiyadan irəli gələn problemlərlə bağlı hər hansı risklərin qiymətləndirilməsi aparılırmı və müəyyən planlar hazırlanırmı? İkinci sualım çox ciddi bir məsələ ilə bağlıdır. Adətən ailədə 1 ev kompüteri mövcuddur və indiki dövrdə valideynlər də artıq uzaqdan işləməyə məcburdurlar. Bu da o deməkdir ki, ailədə kompüter 1dənə olsa belə o kompüterdən istifadə etməli olan şəxslər bir neçə nəfərdir. Uşaqların sayı 1-dən çoxdursa, bu, artıq ciddi bir problemə çevrilir. Sizin fikrinizcə, gələcəkdə bu kompüter qıtlığı ilə bağlı məsələni necə həll etmək olar? Ümumiyyətlə bununla bağlı hər hansı bir ideyalar, plan varmı?*

**Emin Əmrullayev,** Təhsil naziri: Sualınıza görə təşəkkür edirəm. Həqiqətən də COVID-19 pandemiyası tək Azərbaycanda deyil, göründüyü kimi, bütün dünyada qəflətən və gözlənilməz olan bir hadisədir. Bəzən sual verirlər ki, bəs bizim təhsil sistemimiz buna hazır idimi? Mənə elə gəlir ki, nəinki biz, ümumiyyətlə, dünya buna hazır deyildi. Koronavirus pandemiyası ilə bağlı yaranmış vəziyyəti 2 hissəyə bölərdim. Birinci hissəni şərti olaraq texniki və yaxud da cari adlandırmaq olar. Üzbəüz ənənəvi öyrəşdiyimiz müəllimlər, valideynlər, şagirdlər üçün asan olan və yaxud hamının rahat hesab elədiyi öyrənmə mühitini bu günləri bizdən asılı olmayan səbəblərə görə təşkil edə bilmirik. Aydın məsələdir ki, niyə edə bilmirik. Çünki hal-hazırdakı tədqiqatlara görə məktəblər yoluxmaya ən çox təsir edən yerlərdən biri hesab edilir. Və insan həyatı, sağlamlığı naminə, təbii ki, bugünkü təhsili həmin dediyim ənənəvi qaydada təşkil edə bilmirik. Distant təhsil bu günləri bəzən mənə elə gəlir ki, cəmiyyətdə sanki biz ənənəvi təhsildən distant təhsilə keçirik kimi qarşılanır. Amma hazırkı dövrdə, ona görə bunu cari adlandırıram, yəqin ki, daha çox böhranlı vəziyyətdə mümkün dərəcədə nə mümkündürsə öyrənməyə, onu edə bilirik. Böhran vəziyyətini öyrənmək üçün mümkün olanı edirik. Eyni zamanda həmin o situasiyada vacib məsələlərdən biri təhsil prosesinin çoxtərəfli proses olması, məsuliyyətin tərəflər üzərində paylanmasıdır. Dövlət təhsildə vacib rol oynasa da, ancaq yeganə vacib rolu oynayan amil deyil. Yəni, istər valideynlər, müəllimlər, məktəb, istərsə də nazirlik olsun, bu, hamının problemidir. Problem isə ortadadır və biz onu hər bir halda ictimaiyyətdən nəyi isə gizlətmədən imkanlarımız çərçivəsində müzakirə etməyə hazırıq. O ki, qaldı həmin o cari blokda sizin dediyiniz kompüter çatışmamazlığı, internetə çıxışın zəif olmasına. Mən bura müəllimlərimizin onlayn dərs keçmə bacarıqlarını da əlavə edərdim. Çünki onlayn dərs yalnız hansısa proqrama qoşulub ekranın bu biri tərəfindən danışmaq deyil. Onlayn dərslər tədrisin tamam başqa formatıdır. Təbii ki, biz bu baxımdan koronavirus pandemiyasına davamlı olaraq problematik tərəf kimi baxa bilərik. Ən birinci gündən biz başa düşürdük ki, kompüter və internet problemləri olacaq. Ona görə də teledərslər modelini seçdik. Çünki bu gün teledərslər kompüterlərlə müqayisədə ən azı minimal olaraq nəyisə şagirdə çatdırmağa imkan verir. Düzdür, zamanı ola bilər ki, az olsun. Mən özüm də zaman-zaman həmin teledərslərə baxıram. Həqiqətən də ən savadlı müəllimlər öz bilik və bacarıqlarını ekran vasitəsilə şagirdlərə çatdıra bilirlər. Təbii ki, burada problem interaktivliklə bağlıdır. Şagird həmin an suallarını verə bilmir və s. Onlayn dərslərlə bağlı bugünkü rəqəmlərə baxsaq, Bakı, Sumqayıt kimi böyük şəhərlərdə təxminən 74-75% şagirdi qeydiyyatdan keçirərək onlayn təhsilə cəlb edə bilmişik. Digər yerdə qalan şagirdlərlə bağlı məsələ, təbii ki, bizim üçün də problemdir. Bu gün Azərbaycanda 1 milyon 500 min şagird var. Amma Azərbaycan bazarında heç bu qədər sayda kompüter satışda yoxdur. Yəni 1 milyon 500 min ədəd kompüter kifayət qədər böyük saydır. Yəni düşünməyək ki, bu sayda kompüteri insanlara çatdıran kimi bununla bağlı problemlərimiz həll olunacaq. Mənə elə gəlir ki, əksinə, bizim ciddi problemlərimiz yaranacaq. Belə ki, kompüterlərdən istifadə zamanı sınma və ya baş verə biləcək texniki nasazlıqlar, təmir olunmaq ehtiyacının yaranması və s. məsələlər meydana çıxa bilər. Yəni, bu, birtərəfli deyil, bütövlükdə sistemli bir iş olmalıdır. 1 şagird bir kompüter sistemi tətbiq edilən ölkələrin bir çoxunda da məhz sadaladığım səbəblərlə bağlı elə də böyük uğurlar əldə edilməyib.

Düşünürəm ki, bu proses bizlərə indi yeni bir imkan açır. İctimai müzakirəyə açıq olmalıyıq ki, düzgün strategiya seçək. Yəni hazırda müvəqqəti olaraq deyək ki, teledərslər, mümkün dərəcədə onlayn dərslər veririk, sonra biz ənənəviyə qayıdırıq. Bu, bir yanaşma ola bilər. İkinci yanaşma ola bilər ki, yaxşı, belə bir situasiya ilə bir daha üzləşsək, onda nə edəcəyik? Ondakı fəaliyyət planımız nədən ibarətdir? Məsələn, hazırda nazirlik olaraq təbii ki, ikincisinin üzərində düşünməyə başlayırıq. Ali təhsil müəssisələrində distant təhsilə keçid, ümumiyyətlə, distant təhsil vasitəsilə dərəcələrin verilməsi, deyək təhsilin bu formata keçməsi və transformasiyası barədə düşünə bilərik. Amma hamı başa düşür ki, transformasiya bir gecəyə baş vermir. O ki qaldı ikinci hissəyə, yəni hansına ki mən buna daha çox uzunmüddətli strateji blok deyə bilərəm. Bu mənə elə gəlir hər bir insana həm təhsildə, həm təhsil olmayan sahələrdə bir şey öyrətdi ki, yeni dövr kifayət qədər qeyri-müəyyəndir. Yəni biz görürük ki, qeyri-müəyyənlikləri kim daha yaxşı başa düşüb idarə etməyə hazırdırsa həmin sistemlər daha uğurlu və daha çox şeyə nail ola bilər, nəinki ənənəyə sadiq qalmaq istəyən sistemlər. İctimaiyyətin sifarişi nədir? Çox vacib bir sualdır. Mənə elə gəlir ki, biz şikayət ab-havasından irəliyə, düşüncə ab-havasına keçməliyik .

### Qazilərlə bağlı məsələyə status kimi baxmalıyıq

***Vüsalə Məmmədova:** Cənab nazir, biz tarixi günləri yaşayırıq. Azərbaycan əsgəri bizə zəfər duyğusunu yaşadıb. Təhsil Nazirliyi bu gün Vətən Müharibəsinin qəhrəmanı olan oğullarımızın təhsil haqqından azad edilmələri üçün hansısa təkliflə çıxış edəcəkmi?*

**Emin Əmrullayev,** Təhsil naziri: Siz artıq qeyd etdiniz ki, bu qələbə Azərbaycan əsgərinin qanı və canı bahasına başa gəlib. Allah şəhidlərimizə rəhmət eləsin! Bu işdə öz canından və qanından keçən insanlar Azərbaycanın növbəti nəsli qarşısında böyük öhdəliklər, o cümlədən imkanlar açıblar. Bizim qazilərimiz, yaxud müharibə veteranı adı daşımaq şərəfinə nail olan insanların cəmiyyətdə xüsusi rolu var. Bilirsiniz ki, Veteranlar haqqında xüsusi qanun var. Bir çox ölkələrdə belə insanlara ən sadə məsələlərdə belə xüsusi həssaslıqla yanaşılır. Yəqin ki, bunun şahidi olmusunuz. Düşünürəm ki, hazırda, təbii ki, prosesin ortasındayıq. Düzdür, böyük zəfər qazanmışıq. Bu prosesin nəticələri qiymətləndirilir. Azərbaycan dövləti hər zaman öz vətəndaşı, xalqına böyük töhfələr verən insanlar üçün müvafiq şəraitləri yaradır. Təbii ki, müharibə veteranlarına ən müxtəlif səviyyələrdə diqqət və qayğının göstərilməsi məndə şəxsən heç bir şübhə yaratmır. Mənə görə ümumiyyətlə, sualın güzəşt kimi yox, status kimi qoyulması daha düzdür. Qazilərlə bağlı məsələyə status kimi baxmalıyıq. Həmin vətəndaşlarımızın hansı statusa malik olması və nə kimi üstünlüklərdən faydalanması kifayət qədər ədalətli mövzudur.

### Qeyri -mərkəzləşdirilmiş sistem etimad və inamla bağlıdır

***Cəsarət Valehov:** Biz, ümumiyyətlə, şəffaflığın qorunması, belə obrazlı desək, uçotun düzgün aparılması məqsədilə idarəetmədə müəyyən mərkəzləşmə prinsipini tətbiq elədik və son 6-7 ildir ki, bu proses həyata keçirilir. İndi bu mərkəzləşmənin əks mərkəzləşməyə transformasiya olunması dövrü çatmayıbmı? Yəni, belə deyək, biz özü müəllim seçən məktəb direktorunu nə vaxt görəcəyik? Şübhəsiz ki, ayrı-ayrı istisnalar var. Amma ümumən deyirəm.*

**Emin Əmrullayev,** Təhsil naziri: Burada məsələ çox sadədir. Qeyri- mərkəzləşmiş sistemlər o vaxt mövcud olur ki, insanlar arasında etimad və bir-birinə inam var. Və adətən bu təcrübədə belə deyək, statistik nöqteyi ilə ölçülə bilən şeydir. Yəni, etimadı da ölçmək olar. Hazırda məktəb direktoru seçmək bir tərəfə qalsın, hansı məktəbdə hansı fəndən neçə saat dərs demək lazım olduğunu da Təhsil Nazirliyi müəyyən edir. Niyə görə belədir? Çünki hətta bu şərtlər çərçivəsində belə biz hər il bir neçə məktəb direktorunun, belə deyək də, həmin saatları qeyri-düzgün bölməkdə, paylamaqda problemlərini görürük.

Və yaxud, biz artıq 7 ildir müəllimlərin işə qəbulunu mərkəzləşdirilmiş qaydada keçiririk. Siz də bilirsiniz ki, ildə bizim apardığımız müəyyən yoxlamalar nəticəsində az sayda da olsa müəllimlərin işə qəbulu imtahanından kənar işə qəbul olmaq cəhdləri olur. Mənə elə gəlir ki, Təhsil Nazirliyi burda mərkəzi icra hakimiyyəti orqanı olaraq prosesi tənzimləyən qurumdur.

### Qaydalara əməl edilsə, ona kimin nəzarət edəcəyi o qədər də vacib deyil

Vətəndaşlarımızın məsələyə münasibəti həlledici məsələdir. Və biz bu problemi açıq danışmalıyıq, nəinki bir tərəfi tapıb onu günahlandırmalıyıq. Çünki bu model işləmir. Yəni biz artıq son neçə illərdir ki, təhsil sistemində "günahkarı tapıb onu cəzalandırmaq" modelinə inanırıq, amma nəticə eyni olaraq qalır. Mənə elə gəlir ki, biz sadəcə olaraq bu məsələlər barədə açıq danışmağa keçid eləməliyik və başa düşməliyik ki, bu, niyə belədir? Həqiqətən də, niyə görə misal üçün, insanlar bizim cəmiyyətdə oxumadığı, əziyyət çəkmədiyi halda diplom almaq və ya öz qiymətinin bir bal yuxarı olmasını istəyir ? Nəyə görə insanlar güzəştlərə malik olmağı arzulayır, hansısa bir formada özlərinin bu və ya digər şəxsi həyatı ilə bağlı olan hekayələri təhsilin ölçməsinə gətirib çıxardırlar. Dəfələrlə belə olub ki, biz imtahanlar edirik. Vətəndaşların qəbulu zamanı məsələn,vətəndaş gəlir ki, mən iki bal az yığmışam amma, bilirsiniz bizim evimizdə xəstə var, ona görə bu iki balı mənə keçin. Mənə elə gəlir bu davranışdan biz artıq kifayət qədər sistemli və qaydalara uyan davranışa keçməliyik. Burada ana məsələ qaydadır. Yəni biz əgər qaydalara əməl edə bilməyi öyrənsək o, qaydaların Təhsil Nazirliyi tərəfindən, yoxsa məktəb direktoru tərəfindən və ya yerli təhsil şöbəsi tərəfindən nəzarəti ikinci sualdır. Səmimi olaraq deyim ki, onun heç fərqi də yoxdur. Qaydalar müqəddəsləşəndə kimin ona nəzarət etməsi daha önəmli olmayacaq. Məktəb direktoru bunu edəcək, yoxsa nazir edəcək və ya nazirliyin şöbəsi edəcək. Mənə elə gəlir ki, bu tənzimlənməli olan məsələdir. Bu bütün ölkələrdə ona görə belə deyil ki, orada insanlar bizdən fərqlidirlər, sadəcə olaraq orada bu qaydalarla bağlı şəffaflıq və informasiyanın daim paylaşılması var. Məsələn, biz bunu MİQ-də edirik. Proses göz önündə baş verir, kimin neçə balla hansı təhsil müəssisəsində müəllim kimi fəaliyyət göstərəcəyi məlum olur. Bəzən bununla bağlı çox az sayda narazı qalanlar da olur. Ancaq ümumilikdə bizim də vicdanımız təmizdir ki, biz hansı formada kimi hara işə qəbul etmişik, o məlumatlar şəffafdır. Düşünürəm ki, bu, vacib bir məqamdır. Qeyri-mərkəzləşdirmə üçün ən vacib məsələ insanlarda həmin o proseslərə inanma, proseslərlə bağlı şəffaf informasiya bölgüsünü hamıya çatdırmaqdır və düşünürəm ki, ondan sonrakı direktoru kim təyin edir sualı artıq mahiyyət etibar ilə bir o qədər mənalı olmayacaq. Qaydalara əməl edilsə, ona kimin nəzarət edəcəyi o qədər də vacib deyil.

## Dərsliklərimiz sinqapurlu mütəxəssislərlə birgə müzakirə ediləcək

5 dekabr saat 11:00-da Təhsil Nazirliyinin, Təhsil İnstitutunun dəstəyi, "T-network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə "Dərsliklərdə yeni mərhələ: Sinqapur modeli" adlı onlayn müzakirə təşkil olunacaq.




Azərbaycanlı və sinqapurlu mütəxəssislərin iştirakı ilə keçiriləcək onlayn görüşdə dərsliklərin mövcud vəziyyəti və dərsliklərdə Sinqapur təcrübəsi müzakirə ediləcək.

Müzakirələrdə Təhsil İnstitutunun direktor əvəzi Anar Nağıyev, institutun direktor müavini Ülkər Babayeva, Sinqapurun "Alston" nəşriyyat evinin nümayəndəsi Wee Chee Sim, "Marshall Cavendish" nəşriyyat evinin nümayəndəsi Khairi Sallehudin Bin Abdullah, dərslik mütəxəssislərinin iştirakı nəzərdə tutulur.

Müzakirələr vasitəsilə bir sıra beynəlxalq qiymətləndirmə nəticələrində zirvədə olan Sinqapur təhsil sisteminin orta məktəb dərslik təcrübəsi öyrəniləcək, eləcə də keyfiyyətli dərsliyin meyarlarına, müasir dövrün dərsliklərdə yaratdığı yeni çağırışlara, dərsliklərin mövcud vəziyyətinə toxunulacaq. Həmçinin Təhsil Nazirliyinin Sinqapur ilə əməkdaşlıq çərçivəsində hazırlanması planlaşdırılan dərsliklərin gözlənilən təsirləri və yeniliklər barədə fikir mübadiləsi aparılacaq.

Müzakirələri Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsi üzərindən canlı izləyə bilərsiniz.

## Riyaziyyat dərsliklərinin təkmilləşdirilməsində Sinqapur təcrübəsindən istifadə ediləcək




Təhsil Nazirliyi tərəfindən riyaziyyat fənni üzrə təhsil proqramının və ümumi təhsil müəssisələrində istifadə edilən dərsliklərin müasirliyini, həmçinin rəqabətliliyini təmin etmək məqsədilə yeni layihəyə start verilir. Belə ki, bununla bağlı dünyanın bir çox ölkələrinin riyaziyyat fənni üzrə standartlarını və dərsliklərini uğurla təkmilləşdirmiş Sinqapurun Marşal Kavendiş İnstitutu ilə müqavilə imzalanıb.

Marşal Kavendiş İnstitutu və Təhsil İnstitutu tərəfindən birgə icra olunacaq layihənin birinci mərhələsində azərbaycanlı fənn mütəxəssisləri sinqapurlu mütəxəssislərin riyaziyyat fənni üzrə təhsil proqramının nəzərdən keçirilməsi və təhlili üçün distant təlimlərdə iştirak edəcəklər. Əlavə olaraq, yerli mütəxəssislər riyaziyyat fənni üzrə ölkədə tətbiq olunan təlim və tədris materiallarının təhlili istiqamətində də təlimləndiriləcəklər. Növbəti mərhələlərdə sinqapurlu mütəxəssislərin tövsiyəsi əsasında yerli mütəxəssislər riyaziyyat fənninin tədrisi üzrə cari vəziyyəti təhlil etdikdən sonra müasir dövrün tələblərini və beynəlxalq təcrübələri nəzərə alaraq, riyaziyyat fənni üzrə təhsil proqramında və dərsliklərdə təkmilləşdirmə işləri aparacaqlar. Sonda sözügedən layihə çərçivəsində riyaziyyat kurikulumunun və I—IX sinif riyaziyyat təlim və tədris materiallarının təhlilinə dair iki hesabat və tövsiyə sənədi hazırlanaraq Təhsil Nazirliyinə təqdim olunacaq.

Məlumat üçün bildirək ki, 14 yaşlı sinqapurlu şagirdlər ortalama 621 bal toplayaraq Riyaziyyat və Təbiət elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramının (TIMSS — Trends in International Mathematics and Science Study) 2015-ci il nəticələrinə əsasən riyaziyyat fənni üzrə 57 ölkədən olan 600 000 şagird arasında I yeri tutublar. Həmçinin Şagird Nailiyyətlərinin Beynəlxalq Qiymətləndirilməsi Proqramının (PISA — Programme for International Student Assessment) 2018-ci il hesabatına əsasən riyaziyyat fənni üzrə blokda Sinqapurun 15 yaşlı şagirdləri ortalama 569 ballıq uğurlu nəticə göstərərək İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri arasında 2-ci yerə sahib olublar.

# Dərsliklərin təkmilləşdirilməsi Təhsil Nazirliyinin qarşısında duran əsas məqsədlərdəndir

## Dərsliklərlə bağlı Sinqapur şirkəti ilə yeni əməkdaşlığa başlanılır

**Təhsil Nazirliyi tərəfindən aparılan dərslik siyasəti həm məzmun, həm də dizayn baxımından dünya təcrübəsinə əsaslanır. Təhsildə keyfiyyəti təmin etmək məqsədilə hər il dərsliklərlə bağlı aparılan araşdırmalar, həyata keçirilən layihələr ölkəmizdə dərsliklərin keyfiyyətinin artmasına, daha da təkmilləşdirilməsinə hesablanıb. Ölkəmizdə aparılan dərslik siyasətinin məqsədi məktəbliləri dəyərlər zəminində formalaşan, fiziki və mənəvi cəhətdən sağlam, müstəqil həyata hazır və demokratik düşüncəli vətəndaşlar kimi yetişdirməkdir.**



Ənvər Abbasov



Almaz Həsrət



İlqar Orucov

Dərsliklərlə bağlı daim yenilik axtaran, müasir tələblərə cavab verməyi qarşıya tələb kimi qoyan Təhsil Nazirliyi bu günlərdə Sinqapurun "Alston" Nəşriyyat Evi ilə uzunmüddətli əməkdaşlığa imza atıb. Əməkdaşlığın məqsədi təcrübə mübadiləsi etmək, təbiət fənləri üzrə təhsil proqramlarını, habelə dərslik komplektlərini təkmilləşdirməkdir. Qeyd edək ki, layihənin icrası Təhsil İnstitutu tərəfindən həyata keçiriləcək.

Nəzərə çatdıraq ki, Nazirlər Kabinetinin Qərarı ilə "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" təsdiq olunub. Sənədə əsasən V sinifdə "Təbiət" fənninin tədrisi planlaşdırılır. Bu məqsədlə Sinqapur nəşriyyatı ilə birgə layihənin ilkin mərhələsində xarici mütəxəssislərin konsultasiyası əsasında ibtidai təhsil səviyyəsində təbiət elmlərinin tədrisi üzrə kurikulum, təlim və tədris materialları təhlil olunacaq. Həmçinin beynəlxalq təcrübə və 21-ci əsrin tələbləri araşdırılacaq, müvafiq tövsiyələrə əsasən yenilənmə işləri aparılacaq. Təbiət elmləri üzrə təhsil proqramlarının təkmilləşdirilməsi və dərsliklərin hazırlanması məqsədilə azərbaycanlı fənn mütəxəssislərinə distant təlimlər keçiriləcək.

Layihə çərçivəsində I-IV sinif "Həyat bilgisi" fənni üzrə təhsil proqramındakı təbiət elmlərinə dair məzmun standartları yenilənəcək və yeni V sinif "Təbiət" fənni üzrə məzmun standartları yazılacaq. Bununla yanaşı, V sinif "Təbiət" fənni üzrə dərslik konsepsiyası və bu konsepsiya əsasında yeni dərslik komplekti hazırlanacaq.

Təhsil Nazirliyinin həyata keçirdiyi dərslik siyasəti və Sinqapur şirkəti ilə əməkdaşlıqla bağlı təhsil işçilərinin fikirlərini də öyrəndik.

### "Sinqapur təhsil sistemi ilə əlaqələrimiz işlərimizin uğurla nəticələnməsinə etibarlı dəstək olacaqdır"

**Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim Ənvər Abbasov** bizimlə söhbətində bildirib ki, dərsliklərin hazırlanması Azərbaycanda həyata keçirilən təhsil islahatlarının əsas istiqamətlərindən biridir. Ə.Abbasov ölkəmizdə islahatın ilk dövrlərindən bu məsələyə xüsusi diqqət yetirildiyini və indiyə qədər ümumtəhsil dərsliklərinin hazırlanması sahəsində xeyli təcrübə toplandığını deyir: "Təhsilin məzmun komponenti kimi formalaşdırılan dərsliklərin yaradılması sahəsində işlər bu gün də ciddi şəkildə davam etdirilir. Yaxın günlərdə Sinqapurun "Alston" nəşriyyatı ilə bağlanan müqavilə də məhz bunun aydın şəkildə təzahürüdür. Təhsil sahəsindəki irəliləyişlərimiz, xüsusilə nəticəyönümlü təhsil məzmununun və intellektual dərsliklərin yaradılması sahəsində vəzifələrimiz bizdən məhz Sinqapur kimi dünyanın təhsil meridianında özünün sözünü demiş bir ölkə ilə əməkdaşlıq etmək, onunla məsləhətləşmək, təcrübə mübadiləsi aparmaq zərurətini qarşıya qoymuşdur. Çünki bu ölkə özünün nəticələri ilə dünya təhsil məkanında liderlik edir".

Ə.Abbasov Sinqapurun "Alston" nəşriyyat evinin bu sahədə xüsusi yeri olduğunu və dünyada orta məktəb şagirdləri üçün dərslik və dərs vəsaitlərinin hazırlanması ilə məşğul olduğunu da sözlərinə əlavə edib: "Şirkətin riyaziyyat və təbiət elmləri sahəsində nəşr etdiyi dərsliklər yüksək keyfiyyətinə görə dünyada tanınır. Bundan əlavə, nəşriyyat riyaziyyat və təbiət elmləri üzrə çoxsaylı əlavə materiallar, o cümlədən "Bilməli olduğunuz hər şey", "İbtidai siniflər üçün təcrübə" seriyalarından test və praktik məşğələlər üzrə əlavə informasiyalar, nümunələr və məsələlər çap edir".

Ə.Abbasov onu da qeyd edib ki, ümumi təhsil pilləsinin yeni standartları və proqramları (kurikulumları) əsasında fənlərin səriştəəsaslı yeni məzmununun yaradılması istiqamətində fəaliyyətlərin davam etdiyini, standartların, kurikulumların, dərsliklərin təkmilləşdirilməsi istiqamətində məzmun islahatlarını diqqət mərkəzində saxladıqlarını da diqqətə çatdırıb: "I-IV siniflərdə "Həyat bilgisi" fənni üzrə təkmilləşmə işlərinin aparılması, eləcə də V siniflərdə "Təbiət" fənni üzrə yeni məzmunun yaradılması da bu qəbildəndir. Əminəm ki, Sinqapur təhsil sistemi ilə əlaqələrimiz işlərimizin uğurla nəticələnməsinə etibarlı dəstək olacaqdır. Hesab edirəm ki, biz bu dövlət siyasətinin həyata keçirilməsi üçün dərslik texnologiyalarının optimal variantının müəyyənləşdirilməsi, variativ modellərin hazırlanması və digər fəaliyyətlərimizdə Sinqapur təhsil sistemindən, onun uğurlu nəticələrindən yararlana biləcəyik".

### "Sinqapur dünya ölkələrinə liderlik edən ən yaxşı təhsil sistemlərindən birinə sahibdir"

**Bakıdakı 3 nömrəli tam orta məktəbin direktoru, Əməkdar müəllim Almaz Həsrət** bildirib ki, ümumi təhsil sahəsində aparılan beynəlxalq qiymətləndirmə tədqiqatlarına əsasən, Sinqapur dünya ölkələrinə liderlik edən ən yaxşı təhsil sistemlərindən birinə sahibdir. Əməkdar müəllim bu baxımdan Sinqapurun nəşriyyat evi ilə birgə əməkdaşlığı yüksək qiymətləndirdiyini deyib: Zənnimcə biz ən yaxşı nəticə ilə seçilən nümunəni tətbiq edəcəyik. Dərsliklərin yazılması prosesində məhz beynəlxalq təcrübə və 21-ci əsrin tələblərinin araşdırılması vacibdir. Təhsil naziri Emin Əmrullayevin təşəbbüsü ilə dərsliklərin hazırlanması mexanizmində müvafiq tövsiyələrə əsasən yenilənmə işlərinin aparılması təqdirəlayiqdir. Təbiət elmləri üzrə təhsil proqramlarının təkmilləşdirilməsi və dərsliklərin hazırlanması məqsədilə azərbaycanlı fənn mütəxəssislərinə distant təlimlərin keçiriləcəyi də çox vacib amillərdən biridir. Bu, tam doğru yanaşmadır. Əlbəttə ki, biz ən yaxşı dərslikləri gələcəyimiz olacaq şagirdlərimiz üçün hazırlamalıyıq. Bu imkanı və şəraiti yaradan dövlətimizə Təhsil Nazirliyinə təşəkkürümü bildirirəm".

A.Həsrət onu da qeyd edib ki, Sinqapurda yazılmış dərsliklərin modelini eynilə deyil, strukturca tətbiq etmək daha məqsədəuyğundur. O, dərsliklər yazılarkən bəzi məqamlara diqqət edilməsinin vacibliyini də sözlərinə əlavə edib. "Məncə, dərsliyi yazan müəllif bütün şagirdləri nəzərə almalıdır. Çünki dərsliyi əlinə alan həm kənd məktəblisi, həm də şəhər, rayon məktəblisidir. Dərsliklər bütün bu meyarları özündə ehtiva edə biləcək məzmunla yazılsa, daha yaxşı olar. Bir şeyi də nəzərə almaq lazımdır ki, dərsliyi yazan müəllif məzmunca bilikli olmaqla yanaşı, həm də hər sinif şagirdinin psixologiyasını dərindən bilməlidir. Dərsliklər həm məzmun, həm də üslub baxımından asan dildə yazılmalı, rəngarəng olmalı, yorucu olmamalıdır. Yerli mənzərə uyğunlaşdırmaqla yanaşı ümumbəşəri məzmuna da diqqət edilməlidir. Dərsliklər internetdə yerləşdiriləndə mətn daxilində ən müasir üslublardan olan hiper keçidləri ilə də seçilməlidir. Fikrimcə, yeni dərsliklər hazırlanarkən məktəb müəllimləri, psixoloq və elm adamlarının olması da vacib amillərdəndir".

**Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fəlsəfə doktoru İlqar Orucov** deyir ki, Təhsil Nazirliyinin Sinqapurun "Alston" Nəşriyyat Evi ilə uzunmüddətli əməkdaşlığı dövlətimizin dərslik siyasətində yenilikdir. İ.Orucov bu əməkdaşlığı yüksək qiymətləndirdiyini bildirib: "Bu, ilk növbədə Sinqapur dövlətinin təhsil sahəsindəki yüksək nailiyyətlərinin və təcrübəsinin ölkəmizdə tətbiqi deməkdir. Fikrimcə, dünyanın təhsiltutumlu və təhsilin səviyyəsinin yüksək olduğu ölkələrdən biri olan Sinqapurun dərsliklərlə bağlı təcrübəsinin Azərbaycanda tətbiq edilməsi uğurlu nəticələrə gətirib çıxaracaq, xüsusilə, təbiət fənləri üzrə təhsil proqramları yenilənəcək, yeni nəsil dərsliklər formalaşacaq, habelə yeni çağırışlara cavab verəcək yeni sistem qurulacaq".

Sinqapurun nəşriyyat evi ilə yeni qurulan əməkdaşlığa böyük ümid bəslədiyini deyən Təhsil Şurasının məsul katibi sözlərinə belə davam edib: "Nəzərə alsaq ki, Sinqapur təhsil sistemi bir çox parametrlərinə görə dünyada lider mövqeyə malikdir, o zaman əməkdaşlığın faydalılığına dair indidən nikbin və pozitiv fikirlər söyləmək mümkündür. Təhsil sahəsində dünyadakı qabaqcıl təcrübələri öyrənmək, tətbiq etmək istiqamətində reallaşdırılan işlər bir daha onu göstərir ki, Təhsil Nazirliyi yeniliklərə, çağırışlara açıqdır. Sinqapurla imzalanan əməkdaşlıq müqaviləsində təbiət fənləri üzrə yeni tədris proqramlarının təkmilləşdirilməsi ilə bərabər, həm də fənn mütəxəssislərimizə dərslik komplektlərinin hazırlanması məqsədilə distant təlimlərin keçirilməsi nəzərdə tutulur. Bu da yaxın gələcəkdə təhsil sahəsində aparılan müxtəlif beynəlxalq qiymətləndirmə tədqiqatlarının nəticələrində milli təhsilimizin mövqeyinin yüksəlməsi deməkdir".

Niyazi RƏHİMOV

# "QARABAĞın məşhur müəllimləri"




## Haşım bəy Vəzirov

Pedaqoq, publisist, tərcüməçi, jurnalist, yazıçı, naşir Haşım bəy Vəzirov 1868-ci ildə Şuşa şəhərində anadan olub.

Haşım bəy Vəzirov İrəvan, Bərdə, Şəki və Şuşada müəllimlik edib. İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra Böyük Vedi kəndində müəllimliyə başlayıb. Sonra Cavanşir qəzasının Alpout, Şəki qəzasının Kiçik Köynük, Cavanşir qəzasının Bərdə kəndlərində pedaqoji fəaliyyətlə məşğul olub. Bir müddət isə Şuşada yaradılan müsəlman-rus məktəbinin müdiri işləyib. Şuşa realnı məktəbinin hazırlıq sinfində ana dilindən dərs deyib.

Pedaqoji fəaliyyət Vəzirova xalqının məişətinin daha dərindən öyrənilməsinə imkan yaradıb. Xalq həyatından, məişətdən öyrəndikləri onun bir yazıçı-jurnalist kimi fəaliyyətinə səmərəli təsir göstərib. Haşım bəy müdir işlədiyi məktəbdə sərt bir nizam-intizam yaratmaqla yanaşı, savadsızlar üçün axşam kursları da açıb. Bütün varlığıyla millətinin savadlanmasına, məktəbə gələn hər bir uşağın yüksək bilik almasına çalışıb. O, əlinin əməyi, zəhməti hesabına dolananları, cəmiyyətin bütün təbəqələrini əhatə edən çalışqan insanı millətinin sərvəti hesab edib.

## Müseyib İlyasov

Azərbaycanda xalq təhsilinin inkişafında müstəsna xidmətləri olan ziyalı, Şuşada açılan darülmüəlliminin ilk təşkilatçı və müdiri Müseyib İlyasov 1884-cü ildə Laçın rayonunun Oğuldərə kəndində anadan olub.

Müseyib İlyasov Bakıda və Qubada məktəbdə işləyib. 1931-ci ilədək Zəngəzur Qəza Xalq Maarif şöbəsinin müdiri vəzifəsində işləyib. Xalq Maarif şöbəsinə rəhbərlik etdiyi illərdə Laçın şəhərində, Şamkənd, Vağazin, Qorçu, Kürdhacı, Hoçaz və onlarla başqa kəndlərdə məktəblər açıb.







## Ənvər Rza

Ənvər Rza 1939-cu il martın 3-də Kəlbəcər rayonunun Aşağı Ayrım kəndində anadan olub.

Ənvər Rza M.F. Axundov adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun (indiki Azərbaycan Dillər Universiteti) ingilis dili fakültəsində təhsil alıb. Həmin institutda ingilis dili leksikası kafedrasında müəllim, baş müəllim, kafedranın müdiri vəzifələrində işləyib. Sonra institutun nəzdində ilk dəfə olaraq tərcümə kafedrasını yaradıb və ömrünün sonunadək bu kafedranın müdiri vəzifəsində çalışıb. O, istedadlı şair, cəfakeş alim, həm də peşəkar tərcüməçi olub.

# Qəhrəman müəllimlər

Budur, bir yol gedir. Yolun bir ucunda məktəb, o bir ucunda od-alov, qan-qada, göz yaşı var. O yolun getdiyi yer də bəllidir, yolçusu da. Müəllimlər hansı amal üçün hara getdiyini bilirlər. Yolçusu müəllimlər olan həmin yol Şuşaya gedir.

Bura Şuşadır! Bura Vətəndir! Onlar da bu vətənin ayrılmaz, unudulmaz parçaları. Məktəbi döyüş meydanına dəyişən qəhrəman ruhlu MÜƏLLİMLƏR.

# Məktəbi səngərə dəyişən vətənpərvərlər

## El üçün eldən gedən MÜƏLLİM



Karyerasına müəllim kimi başlayıb, ehtiyatda olan zabit kimi davam edən və sinifdən səngərə uzanan yolunu şəhadətilə taclandıran daha bir qəhrəman müəllim. Famil Əhmədzadə İsmayıllı rayonunda yaxşı müəllim kimi tanınırdı. Ancaq indi onu bütün Azərbaycan tanıyır. O, azərbaycanlılar üçün tarix yazan tarix müəllimlərimizdən biridir.

Famil Əhmədzadə 1997-ci ildə Dövlət İdarəçilik Akademiyasını qırmızı diploma bitirib. Elə o vaxtdan İsmayıllı rayon E.Məmmədov adına 3 nömrəli məktəb-liseydə tarix müəllimidir. Fəaliyyətinin ilk günlərindən şagirdlərinin və müəllim kollektivinin rəğbətini qazanıb. Qısa zamanda rayonun tanınmış simasına çevrilib. Rayon tədbirlərini hər zaman o idarə edib. 2020-ci ildə Vətən müharibəsi başlayanda ehtiyatda olan baş leytenantın da müraciəti dəyərləndirilib və Famil Əhmədzadə döyüşlərə cəlb edilib. Azərbaycan Ordusunun minlərlə könüllü döyüşçüsündən biri olaraq cəbhəyə yollanıb və orada da öz sözünü deyib. Oktyabr ayının 14-də Talış və Suqovuşan istiqamətlərində gedən döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalıb.

### Sinifdə hərbi intizam

İsmayıllı şəhər 3 nömrəli məktəb-liseyin tarix müəllimi Famil Əhmədzadə ilə bağlı çalışdığı məktəbin direktoru Əhmədağa Ələkbərzadə üçün keçmişdə danışmaq çox çətindir: “Sanki mələk idi. Adam var evdən gedir, adam da var eldən. Sözün əsl mənasında, Famil müəllim eldən getdi. Bizim üçün çox böyük itkidir. 1997-ci ildən məktəbimizdə tarix müəllimi işləyirdi. Sinfi aşağıdan verirdim ona, XI sinfə qədər ən yüksək səviyyədə gətirir, yüksək nəticələrlə təhvil verirdi. Sinifdə, sözün əsl mənasında, hərbi intizam yaradırdı. Özü də həmişə təmiz, səliqəli olurdu, sanki parıldayırdı. 2008-ci ildə məktəbimizdə Tarix Diyarşünaslıq Muzeyi yaratdı. Hazırda muzey Famil Əhmədzadənin adını daşıyır. Orada rayon muzeyinə yetəcək qədər eksponat var. Ümumiyyətlə, məktəbin hər yerində, hər işdə onun əlinin izi var”.

Famil Əhmədzadə, sadəcə məktəbdə yox, rayonda tanınıb: “Rayondakı bütün tədbirlərin aparıcısı məhz Famil müəllim olurdu. Məktəbimizin uşaqlarının 70 faizini tarix fənni üzrə o hazırlayırdı. Yaxşı müəllim çoxdu. Famil müəllim həm yaxşı müəllim, həm də əsl insan idi. Bunu bacarmaq elə də asan deyil. Bütün kollektivimiz, şagirdlərimiz, müəllimlərimizin ürəyində xüsusi iz qoyub getdi”.

### Səninlə fəxr edirəm, Ata!

Famil müəllimin 19 yaşlı oğlu Fərid üçün də atasının yeri hər zaman görünəcək. Hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbəsi olan Fərid atasının döyüş ruhundan danışıb: “Atamla döyüşən əsgər və zabitlər onun döyüş ruhunun çox yüksək olduğunu deyirdilər. Hətta orda başqa əsgərlərin də əhvali-ruhiyyəsinə müsbət təsir edib, döyüş ruhunu yüksəldib”.

Fəridin atası həm də onun müəllimi olub: “Mənə 5-ci sinifdən 11-ci sinfə qədər tarixdən dərs deyib. Hər dərsə hazırlıqlı olub-olmadığımı mütləq yoxlayardı. Ona görə atama arxayın olub dərsimə hazırlıqsız gedə bilməzdim”.

“Səmimi, gülərüz”- kimi xarakterizə etdiyi atası haqqında “Nə qədər danışsam, azdır. Kəlmələr yetməz onu anlatmağa”, - deyir. Əgər onu eşitsəydi, bu gün o, öz şəhid atasına nə deyərdi görəsən? Fərid bu dəfə üzünü atasına tutub: “Bir tarix müəllimi öz qanı ilə tarix yazdı! Səninlə fəxr edirəm, Ata! Torpaqlarımız alındı, qanın yerdə qalmadı!”

## Təşkilatçı, yoxsa döyüşçü?

Hər iki ünvan ona yaraşdı. Hər iki vəzifə onun adında birləşib vahidləşdi. Bu iki vəzifəni birləşdirən onun vətənpərliyi, vətənə sevgisi oldu. Rəvan Ömür oğlu Lətifovdan gedir söhbət.

### Vətən boyda ürək

Vətən sevgisi hər davranışından aydın görünürdü. Təşkil etdiyi hər tədbirdə, şagirdlərlə hər söhbətində vətən dilindəydi. Sincan kənd məktəbinin direktor əvəzi Sabit Qasımov Rəvan müəllimi belə xarakterizə etdi. Dediyinə görə, 2014-cü ildən tanısa da, onunla 2 il idi bir yerdə çalışırdı. Amma insan kimi tanıdığı müəllim yoldaşının peşəkarlığını görmək üçün 2 il də yetərli olub: “Təşkilatçı müavin idi. Hər dərsinin 3-5 dəqiqəsi vətənpərvərlik mövzusunda olurdu. İşğal tarixini unutmaz, unutdurmazdı. Tədbirlərimiz “Şəhidlər Xiyabanı”nda keçirilər, muzeylərə, tarixi abidələrimizə tez-tez gəzintilər təşkil edərdi. Şagirdlərimiz, böyüməkdə olan nəsil özümüzü, dostumuzu-düşmənimizi tanısın deyə”.

Tanıdı və tanıtdırdı. Fəaliyyəti ilə başladığı işi şəhadəti ilə başa çatdırdı.

29 yaşlı təhsil işçisi Oğuz rayonunun Xaçmaz kəndində doğulub, elə burda da qocalmaq niyyətindəydi. Məktəbi bu kənddə tanıdı. Elm, bilik dünyasına Xaçmaz kəndindəki V.İbrahimov adına tam orta məktəbdə daxil oldu. Hərf, söz, rəqəm, hesablama öyrənməyə məhz buradan başladı. Sonra böyüdü. Özündən əvvəl ürəyi böyüdü. Yoxsa o boyda Vətən kiçik ürəyə sığardımı?

### Ömrünü məktəbə həsr edəcəkdi

Əvvəlcə Azərbaycan Dövlət Pedaqoji Universitetində Təhsilin təşkili və idarə olunması ixtisasına yiyələndi. Bu da o demək idi ki, həyatındakı məktəb, sadəcə Xaçmaz kənd məktəbi olmayacaqdı. 2012-ci ildə artıq ilk iş yerində - Ə.Abdulhüseyn adına Şirvan kənd tam orta məktəbində idi. Uşaqlarla məktəbdənkənar və sinifdənxaric tərbiyyə işi üzrə təşkilatçı vəzifəsi onun üçün bir başlanğıc idi. Sonra iş yeri dəyişdi.



### ...ancaq ona verilən ömrü döyüş meydanında tamamladı

Vətən müharibəsi başlayanda Sincan kənd tam orta məktəbində təşkilatçı müavin idi. Sentyabrın 29-da Vətən müharibəsində iştirak etmək üçün çağırış vərəqəsi aldı və məktəbi döyüş meydanı ilə əvəz etdi. Qısa döyüş yolu Şuşaya qədər gedib çıxdı. Şuşa uğrunda da döyüşdü və qəhrəmancasına şəhid oldu. Şəhadət xəbərini ailəsi noyabrın 16-da aldı və o, Xaçmaz kəndindəki “Şəhidlər xiyabanı”nda dəfn edildi.

### Hər işdə öndə olardı

Ata-anasının böyük arzularla böyütdüyü, gələcəyi ilə bağlı xəyallar qurduğu 4 balasından biri idi Rəvan. Ailədə iki bacı, iki qardaş idilər. Sonbeşikdi o. Ailənin ən kiçik və ən sakit uşağı böyüyüb təhsil işçisi oldu, amma döyüşçü kimi həlak oldu.Halbuki döyüşçü yox, təşkilatçı olmuşdu. Məktəbdə təşkil etdiyi tədbirlərin hər biri onun Vətən sevgisini anladır, həmin tədbirlərin iştirakçısı olan məktəbliləri də Vətən notuna kökləyirdi.

Mehribanlığı, şənliyi, üzügülərliyi ilə hamının rəğbətini qazanan Rəvan müəllim şagird ya müəllim demədən hamının köməyinə tələsirdi. Sadəliyi ilə seçilir, yardımsevərliyi ilə tanınır, işgüzarlığı ilə sevilirdi. İşdən qaçmaz, əksinə hər işdə hamıdan öndə olardı.

### Şəhid olsam, bilin ki...

Ömür-gün yoldaşı seçdi özünə, onu yarı yolda qoyacağını bilmədən. Rəvan Lətifov ilk ilə yaxın idi evlənmişdi. Gözü Zülfüqar Abışov adına Xaçmaz kənd ümumi orta məktəbində 2016-cı ildən işləyən Pünhan müəllimi tutub xoşbəxt bir ailə qurmuşdu: “Biri-birimizdən heç ayrı qala bilmirdik. İl yarım idi ailəli idik, aramızda heç anlaşılmazlıq olmadı. Rəvan çox mehriban idi. Uşaq idi sanki. Evə mütləq sürprizlə gələrdi. Daha yaxşı günlərimiz olacağına söz vermişdi, ancaq əməl eləmədi. Şəhid olmadan əvvəl demişdi ki, əgər şəhid olsam, bilin ki, Pününü tanıyandan xoşbəxt yaşamışam”.

### Oğul atası Rəvan müəllim

Rəvan müəllimin böyük arzusu vardı, dünya gözüylə reallaşan arzusunu - oğlunu gördü yaxşı ki: “Ən böyük arzusu övlad sahibi olmaq idi. Yenicə ailə qurmuşduq, “oğlumuz olsun istəyirəm” dedi. Bunu hər zaman deyirdi. Oldu da. Amma cəmi 8 ay oğluyla bərabər ola bildi”. Oğluna xəstə atasının adını verdi, onu daha uzun yaşatsın deyə: “Oğul olaraq çox yaxşı övlad idi. Onun üçün ən önəmli olan ailəsinin rahatlığıydı. Atası şəkərli diabet xəstəsidi. Açıq ürək əməliyyatı keçirib. Hazırda da vəziyyəti pisdir. Çox istəyirdi ki, atasının rahatlığını təmin etsin. Atası qalan ömrünü rahat keçirsin. Oğlumuza da atasının adını verdi ki, o dünyasını dəyişəcək, adı yaşasın. Ancaq özü atasından əvvəl getdi”.

Pünhan müəllimin sözlərinə görə, Rəvan çox zəhmətkeş olub: “Səhər işə gedir, günortadan sonra təsərrüfatla məşğul olurdu. Ayağında revmatizm vardı. Çalışırdı ki, burdan uzaqlaşaq. Amma olmadı. Çox arzularımız vardı”.

Arzuları da ömrü kimi yarımçıq qaldı: “Cəbhədə olanda deyirdi oğlumuzun 1 yaşını qeyd etmək üçün gələcək. Getdiyi 35 gün idi. Danışanda dedi ki, ümid edirəm bu vaxta qədər qoruyan Allah axıra kimi qoruyar. Amma ümid etdiyi kimi olmadı. Allah onu şəhidlik mərtəbəsinə ucaltdı”.

Şəhadətin mübarək, şəhidim. Gözün arxada qalmasın. Babasının adını daşıyan Ömür tamamlayacaq yarımçıq qalan ömrünü.

**Ruhiyyə DAŞSALAHLI**

Mövcud pandemiya vəziyyətində şagirdlərin təhsildən geri qalması ilə bərabər, həm onların, həm də valideynlərin psixoloji sağlamlığının qorunmasına da xüsusi diqqət ayrılır. Nəzərə alsaq ki, texnoloji və internet imkanlarının olması, məlumatlara əlçatanlıq məktəbyaşlı uşaqları da əsassız, yaxud şişirdilmiş, qorxuducu xəbərlərlə qarşılaşdırır, təbii ki, bu da onlar arasında bəzən panikanın yaranmasına səbəb olur. Məhz bu vəziyyət mütəxəssis köməyini labüd edir.

# Pandemiya şəraitində şagirdlərə virtual psixoloji dəstək necə aparılır?



## 146-3 "Qaynar xətt" xidməti

Hələ aprelin 6-da Təhsil Nazirliyi tərəfindən koronavirus (COVİD-19) infeksiyası ilə əlaqədar, karantin rejimində evdə qalan şagirdlər, eləcə də mənəvi-psixoloji dəstəyə zərurət duyan vətəndaşlar üçün 146-3 "Qaynar xətt" xidməti yaradıldı. Bu xidmətə bir çox məktəblərin peşəkar psixoloqları cəlb olundu.

Müsahibimiz, Bakı şəhəri 83 nömrəli məktəb-liseyin psixoloqu Aynur Məmmədova da bu qaynar xətt xidmətində psixoloji konsultasiya ilə yardım göstərənlər arasındadır. Aynur xanım deyir ki, pandemiya dövrü həyatımıza qədəm qoyan gündən məktəb kollektivi olaraq bu mərhələdə şagirdlər arasında yaranacaq fəsadların qarşısını almaq üçün çevik qərarlar verməli olduq: "Hələ pandemiya ilə qarşılaşdığımız ilk vaxtlarda mən şəxsən valideyn və müəllimlərin votsap qruplarına müraciət göndərdim. Məktəbdə həm şagird, həm də valideynlərlə canlı gördüyümüz işləri onlayn məkana daşıdıq. Bu ilin mart ayından bəri, dərs zamanı övladlarına nəzarət, gün ərzində vaxtın düzgün bölüşdürülməsi kimi mövzularda xeyli görüşlər keçirmişik. Şagirdlərin dərsə davamiyyətini, motivasiyasını yüksək saxlamaq üçün bir sıra mövzularda söhbətlər aparmışıq".

Psixoloq deyir ki, məktəbəhazırlıq və ibtidai təhsil səviyyəsində təhsil alan şagirdlərə onlayn psixoloji xidmət bir qədər çətindir. Bu məsələdə valideynlərin yardımı, birbaşa iştirakı işimizi asanlaşdıra bilər, həmçinin, övladları ilə ünsiyyətinə müsbət təsir etməklə yanaşı, uşaqlarının bacarıqlarının aşkara çıxarılmasına, onları daha yaxından tanımalarına kömək olar: "Biz bu məqsədlə ZOOM sosial şəbəkə platformasında valideynlərin də iştirakı ilə həm əyləncəli, həm də öyrətmə xarakterli rollu oyunlar təşkil edirik".

## Hansı yaş qrupları arasında psixoloji dəstəyə ehtiyac çoxdur?

Müsahibimiz 9 və 11-ci sinif şagirdlərinin valideynləri arasından müraciətlərin çox olduğunu deyir.

"Məktəblinin dostu" layihəsinin psixoloqu Nərmin Abbasova keçən tədris ilinin sonlarına yaxın, yəni imtahan öncəsi daha çox buraxılış sinif şagirdləri ilə stress, həyəcanın idarə olunması haqda söhbətlər aparıldığını deyir: "Onlardan bəziləri hələ il ərzində bir neçə dəfə canlı görüşdüyümüz şagirdlər idi. Karantin rejiminə keçəndən sonra da biz onlarla əlaqəni kəsmirik, daim nəzarətimizdə olurlar".

Psixoloq, həmçinin bildirir ki, bu müddətdə əsasən davranış pozuntusu, travması olan, hiperaktiv, valideynləri ilə münasibətlərində problem yaşayan şagirdləri diqqətdə saxlamağa çalışırlar. "Valideynləri ilə tez-tez danışırıq, ehtiyac olduğu təqdirdə onlarla onlayn söhbətlər aparırıq".

Vətən müharibəsi başlayan gündən də ölkə tarixində açılan yeni dönəm bütün sahələrə siraət edən yüksək ruhlu ab-hava yaratdı. Hər kəs vətən keşiyində dayanan əsgər olmağa çalışdı. Müasir nəsillə, xüsusən şagirdlərlə də söhbətlər, münasibətlər yeni müstəviyə keçdi.

Məmmədova deyir ki, bu müddətdə də şagirdlərlə vətənpərvərlik, ordumuza mənəvi dəstəklə bağlı maarifləndirmə, indiki həssas məqamda sosial şəbəkələrdə davranışla bağlı onlayn müzakirələr təşkil ediblər.



## Virtual psixoloji dəstək

Hər üç övladı sözügedən məktəbdə təhsil alan valideyn Vüsalə Mirzəyeva deyir ki, 9-cu sinifdə oxuyan qızı və 11-ci sinifdə təhsil alan oğlu ilə bağlı Aynur xanıma müaraciət edib . "Əslində ənənəvi dərslər zamanı da iki övladıma məktəbdə psixoloji yardım göstərilmişdi. Pandemiya şəraitində üç uşağa evdə nəzarət etmək mənim üçün bir az da çətin oldu. Çünki özüm də işləyirəm. Dərslərə də məsuliyyətsiz yanaşırdılar, öz aralarında da yola getmirdilər. Aynur xanım onlarla onlayn görüşlər keçirdi, danışdılar. Bu, həm mənim, həm də uşaqların mənəvi rahatlığı üçün çox faydalı oldu. Valideynlərə də tövsiyə edirəm, övladları ilə ünsiyyətdə müəyyən problem yaşayırlarsa, mütləq mütəxəssisə müraciət etsinlər. Bu zaman valideyn özü də səhvini görmüş olur".

Bakı şəhəri 247 nömrəli tam orta məktəbin psixoloqu Gülbəniz Hüseynova deyir ki, pandemiya şəraitinə keçən gündən şagirdlərimizin dərs hazırlığı ilə yanaşı, psixoloji vəziyyətləri də bizim üçün əsas qayğı istiqamətlərindən biri oldu. "Hələ canlı dərslər zamanı aşağı, orta və yuxarı yaş qrupları üzrə psixoloji dəstək göstərdiyimiz şagirdlər vardı. Pandemiya işimizdə müəyyən istiqamətlər yaratdı, şagirdlərə, valideynlərə daha yaxından necə kömək ola bilərik deyə, yeni iş planı tərtib etdik. Votsap qrupları yaratdıq. Valideynlərlə həm individual, həm də ZOOM vasitəsilə mütəmadi olaraq tövsiyə xarakterli görüşlər keçiririk. "Virtual məktəb" platformasında dərslərin keyfiyyəti barədə sorğu aparırıq, əgər dərsə qatıla bilməyən şagird varsa, səbəblərini araşdırıb yardımçı olmağa çalışırıq ".

Müsahibimiz deyir ki, məlum virus şagirdlərdən çox, valideynlərdə narahatlıq yaratdı. Buna görə də, biz çalışırıq ki, videoformatda görüşlər zamanı həm valideyn, həm şagirdlə eyni vaxtda söhbət edək: "O zaman həm də valideyn övladının psixoloji vəziyyətinə daha dərindən bələd olur, onunla necə davranacağını müəyyənləşdirir".

## "Psixoloq saatı"

Müəllim, valideyn və şagirdlərə pandemiya dövründə psixoloji dəstək məqsədilə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzdində fəaliyyət göstərən Təlimə Dəstək Mərkəzi (TDM) tərəfindən onlayn "Psixoloq saatı" fəaliyyətə başladı. Hər həftənin IV günü TDM-in psixoloq və metodistlərinin müvafiq mövzular üzrə tövsiyələri mərkəzin "Facebook" səhifəsi vasitəsilə ictimaiyyətə təqdim olunur.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi Təlimə Dəstək Mərkəzinin bölmə müdiri Səidə Əhmədova pandemiya dövründə şagirdlərin psixoloji sağlamlığının qorunması istiqamətində görülən işlərdən danışıb və tövsiyələrini bildirib. "İndiki şərait nə qədər çətin görünsə də, biz əlimizdən gələni etməliyik ki, çıxış yollarını tapaq", - deyə vurğulayan bölmə müdiri rəsmi feysbuk səhifələri üzərindən yayımlanan "Psixoloq saatı"nda həm valideyn, həm də şagirdlərə yararlı ola biləcək mövzuları təqdim etdiklərini bildirir.

Psixoloq Səidə Əhmədova müəllim və valideynlərə tövsiyələrini çatdırıb:

* Virtual dərs zamanı əvvəldən sona qədər övladlarının yanında oturub nəzarət etmək doğru deyil. Bunu övladına açıq-aşkar bildirərək deyil, daha gizli etmək mümkündür. Çünki uşağa inandığını göstərmək, motivasiya vermək lazımdır.

* Özü müəllim olan, bir neçə övladı şagird olan müəllimlər, dərsi videoqeydə alaraq sonra onu uşağa ötürə bilərlər.

* Müəllimlərin peşəkarlıq səviyyəsindən asılı olaraq, onlar hətta indiki şəraitdə də şagirdlərlə onlayn formada informativ və intellektual yükünü saxlamaqla yarı oyun şəklində dərslər qura, uşaqları qruplara bölərək rəqabət mühiti formalaşdıra bilər.

**Gülnarə İLHAM**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6826, **Sifariş** 2776

**Məsul növbətçi:** O.Mustafayev



# Etibarsız sayılır

**Bakı Dövlət Universiteti tərəfindən 1987-ci ildə Abdullayev Cavanşir Ənvər oğluna verilmiş PB-020475 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**

**Şamaxı Dövlət Regional Kolleci tərəfindən 2011-ci ildə Dəmirova Şüşəxanım Qalib qızına verilmiş BB-II-116128 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**

**Bakı şəhər 219 nömrəli evdə təhsil tam orta məktəbi 2004-cü ildə bitirmiş Əhmədov Riyad Mübariz oğluna verilmiş B-007569 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Bakı şəhər 233 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Osmanov Ramiz Məmməd oğluna verilmiş 169552 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu tərəfindən (indiki Azərbaycan Memarlıq və İnşaat Universiteti) 1990-cı ildə Cəfərov Zahid İsmayıl oğluna verilmiş RB-029942 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**

**Bakı şəhər 17 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Bünyatova Şəhanə Mürvət qızına verilmiş A-651023 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**ADNSU nəzdində Bakı Neft-Energetika Kolleci tərəfindən 2019-cu ildə Mikayılov Elnur Elçin oğluna verilmiş tələbə bileti və qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.**

**Bakı şəhər 135 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Quliyeva Məleykə Yadulla qızına verilmiş AN-316367 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən 2016-cı ildə Fərəcova Lalə İlham qızına verilmiş A-088388 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.**

**Bakı şəhər 31 nömrəli tam orta məktəbin IX sinfini 1998-ci ildə bitirmiş Cəfərova (Quliyeva) Almaz Nizaməddin qızına verilmiş B-069649 nömrəli attestat (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.**

**Bakı şəhər 96 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Əkbərova Vüsalə İdris qızına verilmiş A-285423 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Beyləqan rayonu şəhər 4 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Orucova (Mustafayeva) Günel Sabir qızına verilmiş A-478283 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Beyləqan rayon Mayak qəsəbə tam orta məktəbi 2015-ci ildə bitirmiş Məmmədkərimli Samir Məzahir oğluna verilmiş A-446015 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Bakı Özəl Türk Liseyi Lənkəran Özəl Türk filialı tərəfindən 1998-ci ildə Əhədov Rasim Adil oğluna verilmiş A-158928 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Ağdam rayon 14 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Məhərrəmov Alim Nadir oğluna verilmiş A-361318 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Ağcabədi şəhər 5 nömrəli tam orta məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Tağıyev Vüsal Qafar oğluna verilmiş B-291272 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Ağcabədi rayon 12 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Cəfərova Natiqə Fazil qızına verilmiş 700697 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu tərəfindən 1981-ci ildə Nuriyev Rafiq Haqverdi oğluna verilmiş EB-276312 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**

**Bakı şəhər 20 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Abbasova Əminə Mirəhməd qızına verilmiş AN-656082 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.**

**Astara şəhər 7 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Məmmədov Rəşad Tofiq oğluna verilmiş B-281380 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.**

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci tərəfindən 1976-cı ildə Nəsirov Davud Məhərrəm oğluna verilmiş Щ-034944 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**

**Odlar Yurdu Universiteti tərəfindən 2011-ci ildə Həsənov Zahid Məmmədağa oğluna verilmiş BB-I-018418 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

**Faiq Şahbazlı və Şakir Cəfərov ADPU-nun filologiya fakültəsinin 1978-ci il məzunları adından Bakıdakı 56 nömrəli tam orta məktəbin direktoru**

**HİCRAN XANIMIN**

**vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.**

**İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin ingilis dili müəllimi Qıztamam Quliyevaya anası**

**ƏSBƏT ƏHMƏDOVANIN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin tarix müəllimi Nəsimi Rzayevə anası**

**PÜRZƏ RZAYEVANIN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

# İlk müəllim, ilk sevgi...

## Yaxşı müəllim olmaq üçün özündən başlamalısan



*Müəllim ömrü hər ömürdən uludur,*
*Ləkə nədir, qara nədir bilməz o.*
*Müəllim ömrü sabahların yoludur,*
*Nə çəkiyə, nə ölçüyə gəlməz o.*

Söhbət açacağımız ömür 1960-cı ildən start götürən uzun bir yoldur. Zarafat deyil, ötən əsrdən başlayıb bu yol. Qafandan başlayan ömür yolu hazırda Bakıda davam edir. Ziyalı ailəsində doğulub böyüyən bir müəllimdən danışacağıq. Ziyalı kimi böyüdülüb - sevgi və zəhmətlə. Hər ikisinin nə olduğunu yaxşı bilir. Ona görə də həyatında zəhmət də var, sevgi də.

### 60-da başlayıb 60 ildi davam edən ömür

Sözünü etdiyimiz ömrün sahibi 286 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Sərvinaz Abbasovadır. 1960-cı ilin soyuq dekabrında doğulmuşdu, Zəfərin hərarəti yüksəltdiyi 2020-ci ilin yağışlı-yağmurlu dekabrında 60-nı qeyd edəcək. Qələbə soraqlı bu günlərdə yubiley qeyd etməyin sevinci də başqadır təbii.

60-cı ildə başlayan 60 ildir davam edən bu ömrün 40 ili müəllimliyə aiddir. Təsadüfi deyil ki, yaşadığı müəllim ömrü ilə qürurlanır. Niyə də qürurlanmasın?! Düz 40 ildir müəllimdir. Müəllimlik onun işindən çox həyatının bir parçasına, hətta əsas parçasına çevrilib. Özünü ancaq müəllim kimi təsəvvür edir. Əlindən tutub işarə, kəlmə öyrətdiyi uşaqlar ilk cümlələrini onunla qurub. Sevgisi ilə isitdiyi körpə qəlblər böyüdükcə ona olan sevgiləri də böyüyüb. Sevgi verib, sevgi qazanıb. Biri mühəndis, o biri iş adamı, üçüncüsü həkim olaraq günlərin bir günündə qarşısına çıxanda hiss edib gördüyü işin dəyərini, qazandığı sevginin miqyasını. İllər öncə başını sığalladığı körpələr, bu-dur, böyüyüblər. İndi onlar çox dəyişib, tanımaq çətindir. Qollarını açıb üstünə gələn böyük əlləri, geniş sinəsi, enli kürəyi olan insanlar ona "Şagirdinəm" deyəndə gözlərinə inanmayıb. İlk müəllimini qucaqlayan o insanların həyatında hansı rolu oynadığı ağlına da gəlməyib. Ancaq birdən xatırlayıb, axı o, müəllimdir! İlk müəllimi, ilk sevgini unutmaq asandırmı?

Ana qucağından ilk dəfə ayrılıb məhz onun ətəyindən yapışan körpə əlləri ilk o tutub. İlk müəllim, ikinci ana olub. Gördüyü işdən zövq alıb. Özündən də razıdı, şagirdlərindən də. Deyir, əvvəlcə özü razı qalıb, sonra başqaları. Daim təqdir edilib, qiymətləndirilib, mükafatlandırılıb.

### Bu da bir sınaqdı

Sərvinaz müəllimin ömrünə çox sınaqlar yazılıb. Hər sınaqdan üzüağ çıxıb. Növbəti sınağı da pandemiyadır. Onu uşaqlarından ayrı salıb. Əllərinə dəyməsə də, o məsum gözləri hər gün görür. İndi də ürəyinin aynasıyla ötürür sevgisini. Yəni, şagirdlərinin əlini tutmadan da sevgi verə bilir onlara. Şagirdləri də alır, ala biləcəyi qədər.



Onlayn dərslərin ən çox ibtidai siniflər üçün çətin olduğunu deyir hamı. Ana uşaqlarına telefon ekranından hərf, o hərfi söylərkən çıxan səsi anlatmaq heç də asan gəlmir çoxuna. Amma 40 ilin müəllimi üçün heç nə çətin deyil: "Şagirdlərim ikinci sinifdədir. Bu il yeni şagirdim gəldi. Sinfə yenicə qatılmışdı ki, dərslərimiz "Teams" platformasına keçdi. Dərslərimizə yalnız o qatıla bilmir. Mən də onunla "Whatsapp" vasitəsilə məşğul oluram. Tapşırıqlarımı verir, cavablarımı alıram. Hər hansı çətinliyimiz yoxdur. Uşaqlardan aldığım nəticələrdən mən də razıyam, valideynlər də. Şagirdlərim onlayn dərslərdə çox fəaldır. Başqa müəllimləri deyə bilmərəm, mən şagirdlərimin nəticələri baxımından ənənəvi dərslə onlayn dərs arasında fərq görmürəm. Hətta deyərdim ki, onlayn dərslərin ənənəvi dərslərdən üstünlüyü daha çoxdur. Uşaqlar internetdən istifadə etməyi öyrənir, elə məlumatlar toplayıb göndərirlər ki, həm təəccüblənir, həm də sevinirəm".

### Yaxşı müəllim olmağın sirri

Sərvinaz müəllim Pedaqoji İnstitutu bitirib müəllimlikdə addımlamağa başlayalı çox oldu. Uğur dalınca uğur qazandı. Necə deyərlər, əkdiyi ağacların indi sayı-hesabı yoxdur. Deyir ki, müəllim olmaq üçün çox yol qət etmək yetərli deyil. Yolu necə getdiyin daha önəmlidir. Yaxşı müəllim olmaq üçün özündən başlamalısan. Birmənalı olaraq öz üzərində çox, lap çox işləməlisən. Daim inkişaf eləməlisən. Yeniliklərdən vaxtında xəbər tutmalısan.

Vətənpərvər olmalısan ki, bu hissi yetişməkdə olan nəslə ötürə biləsən. Hərfi tanıyıb vətənini tanımayandan şəxsiyyətmi olar?

Adını deyib, sözünü deməyəndən insanmı olar?

Müəllimliyin ən önəmli qaydalarından biri də sonsuz sevgidir. Uşaqlara sevgi olmadan müəllimlik olmaz. Yaxşı müəllim olmaq üçün uşaqları sevməyi, onlara qayğı göstərməyi bacarmaq lazımdır. Sevsə, mütləq sevilәcək müəllim.

Bu peşənin ən böyük tələbi isə səbrdir. Səbr olmadan müəllimlik də olmaz.

Uzun sözün qısası:

*Ömrü ömürlərə paylanan paydı,*
*Safdı, müqəddəsdi müəllim ömrü*

Ömürlərə payladığınız ömrünüz uzun olsun, Sərvinaz müəllim! Ömrünüz də o tükənməz sevginiz kimi paylaşdıqca çoxalsın!

**Ruhiyyə DAŞSALAHLI**

# "Azərbaycanı tanıyaq" adlı virtual dərslər

Təhsil Nazirliyinin dəstəyi, Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin tərəfdaşlığı ilə 23 noyabr tarixindən "Azərbaycanı tanıyaq" adlı virtual dərslərə start verilib.

Layihənin məqsədi gənc nəsildə vətənə məhəbbət hissinin daha da artırılması, Azərbaycanın mədəni irsi, tarixi, mədəniyyəti və turizminin dünya ölkələrinə tanıdılması, xaricdə yaşayan azərbaycanlı uşaq və gənclərin bu sahədə təbliğatlarının genişləndirilməsi, diasporlarla iş əlaqələrinin gücləndirilməsindən ibarətdir.

Mövcud pandemiya ilə əlaqədar virtual təşkil olunan layihə çərçivəsində "Diyarşünaslıq", "Ekoturizm", "Azərbaycan mədəniyyəti", "Milli rəqslər", "Milli musiqi alətləri", "Azərbaycan mətbəxi", "Azərbaycan dili", "Azərbaycan ədəbiyyatı", "Sənətkarlıq" (xalçaçılıq, qurama, toxuma, dizayn), "Azərbaycan muğamı" daxil olmaqla 10 fərqli istiqamət üzrə dərslər keçirilir. Vebinar və virtual dərslər Azərbaycanın şanlı qələbəsi, işğaldan azad olunmuş şəhər və kəndlərin dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı uşaq və gənclərə tanıdılması, hərbi-vətənpərvərlik ruhunun təbliğinə həsr olunub.




Virtual dərslər respublikanın tanınmış müəllimləri, peşəkar təlimçilər tərəfindən xüsusi hazırlanmış proqram üzrə 7-11 və 12-16 yaş kateqoriyalarında Azərbaycan və ingilis dillərində tədris olunur. Proqramda Amerika Birləşmiş Ştatları, Kanada, Fransa, Türkiyə, Pakistan, Macarıstan, Tayland, Finlandiya, Şotlandiya və digər ölkələrdə yaşayan azərbaycanlı uşaq və gənclər iştirak edir.

# "Qarabağ Azərbaycandır!" şahmat üzrə onlayn beynəlxalq turnir




**5-6 dekabr 2020-ci il tarixlərində "Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə "Qarabağ Azərbaycandır!" şahmat üzrə onlayn beynəlxalq turniri keçiriləcək.**

17 yaşadək şahmatçılar arasında seçmə və final olmaqla 2 mərhələ üzrə təşkil olunacaq yarışda ölkə məktəbliləri ilə yanaşı xarici ölkələrin şahmatçıları mübarizə aparacaq. Yarışın final mərhələsində seçmə mərhələdə ilk 30 yeri tutan və finala birbaşa qatılmaq hüququ olan 2400-dən yuxarı reytinqli şahmatçılar mübarizə aparacaq.

Yarışların "Youtube" üzərindən canlı yayımı nəzərdə tutulub.

Turnirin əsasnaməsinə uyğun olaraq qaliblərə diplom və pul mükafatı təqdim olunacaq.

Qeyd edək ki, onlayn platforma üzərindən təşkil olunan "Qarabağ Azərbaycandır!" şahmat üzrə onlayn beynəlxalq turnirinin keçirilməsində məqsəd Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qeyd edilməsi, dünyada koronavirus (COVİD-19) pandemiyasının geniş yayılması ilə əlaqədar tətbiq olunan karantin dövründə məktəblilərin asudə vaxtlarının səmərəli təşkili, müasir texnologiyalardan istifadə etməklə şahmatçıların yarış təcrübələrinin artırılmasından ibarətdir.

# "Virtual təhsilə dəstək" layihəsi

**Təhsil Nazirliyinin "Virtual məktəb" üzrə dəstək çağırışlarına qoşulan "Enginet" şirkəti tərəfindən "Virtual təhsilə dəstək" layihəsinə start verilib.**

"Virtual təhsilə dəstək" layihəsinin məqsədi pandemiya dövründə təhsil sahəsində çalışan insanlara keyfiyyətli virtual tədrisin təşkili üçün tələb olunan alət və texniki dəstəyin göstərilməsidir. Layihə çərçivəsində təhsil işçiləri ödənişsiz olaraq iki ay ərzində 30 MB/s yüksəksürətli genişzolaqlı internet xidməti, İPTV, ödənişsiz qoşulma və istifadə üçün avadanlıqla təmin olunacaqlar. Bununla yanaşı, təqdim edilən xüsusi tarif vasitəsilə müəllimlər pulsuz mobil nömrə əldə edərək, güzəştli rabitə və internet imkanlardan faydalana bilərlər.




Təqdim olunan bütün üstünlük və güzəştlərdən yararlanmaq və "Virtual təhsilə dəstək" layihəsinə qoşulmaq istəyən müəllimlər *1199 nömrəsinə zəng edərək və ya **www.birlink.az** saytına daxil olaraq ətraflı məlumat əldə edə bilərlər.

Qeyd edək ki, layihə "Enginet" şirkətinin təşkilatçılığı ilə "Bakcell", "Azedunet", "Microsoft Azərbaycan", "Smart Electronics" şirkətləri və Təhsildə İnnovativ Texnologiyalar Əlavə Təhsil Mərkəzinin dəstəyi ilə həyata keçirilir.